**04 (1361) 31 yanvar - 5 fevral 2025-ci il**

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## İLHAM ƏLİYEV 1 SAYLI SEÇKİ MƏNTƏQƏSİNDƏ SƏS VERİB



Yanvarın 29-da Azərbaycanda növbəti bələdiyyə seçkiləri keçirilib.
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı şəhərinin 7 saylı Səbail seçki dairəsinin 6 nömrəli orta məktəbdə yerləşən 1 saylı seçki məntəqəsində səs verib.
Prezident İlham Əliyev səsvermə otağına daxil olub seçki bülletenini alaraq kabinəyə keçib və sonra bülleteni qutuya salıb. Qeyd edək ki, Bakı şəhərinin 7 saylı Səbail seçki dairəsinin 1 saylı seçki məntəqəsində 576 seçici qeydiyyata alınıb. Bu seçki dairəsi üzrə 31 namizəd mübarizə aparır.

## AZƏRBAYCAN DİNLƏRARASI VƏ MƏDƏNİYYƏTLƏRARASI DİALOQUN TƏŞVİQİNDƏ MÜHÜM ROL OYNAYIR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 27-də İsrail İqtisadi Forumunun həmtəsisçisi və İdarə Heyətinin üzvü Conatan Misneri qəbul edib.
Dövlətimizin başçısı Azərbaycanda tarixən olduğu kimi bu gün də müxtəlif dinlərin və konfessiyaların, o cümlədən yəhudi icmasının nümayəndələrinin dostluq, əmin-amanlıq və harmoniya şəraitində yaşadıqlarını vurğulayıb. Prezident İlham Əliyev qeyd edib ki, bu, xalqımızın həyat tərzi olmaqla yanaşı, eyni zamanda, Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin tərkib hissəsidir.
Dövlətimizin başçısı vurğulayıb ki, Azərbaycan öz təcrübəsindən çıxış edərək dünya səviyyəsində də dinlərarası və mədəniyyətlərarası dialoqun təşviqində mühüm rol oynayır, bundan sonra da öz töhfəsini verməkdə davam edəcək.
Qonaqlar Azərbaycanda tarixən yəhudi icmasının nümayəndələrinin dinc şəraitdə yaşamaları üçün yaradılmış şəraitə görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.



Onlar ölkəmizə səfər çərçivəsində, həmçinin Quba rayonuna da gedəcəklərini və oradakı yəhudi icmasının yaşayış şəraiti ilə yerində tanış olacaqlarını deyiblər.
Azərbaycanın işğaldan azad olunmuş torpaqlarına səfər etdiklərini vurğulayan qonaqlar həmin ərazilərimizdə qısa müddətdə həyata keçirilən bərpa-quruculuq işlərinin onlara böyük təəssüratlar bağışladığını qeyd ediblər.
Bu səfər çərçivəsində dünyanın müxtəlif ölkələrindən çoxsaylı yəhudi iş adamlarının ölkəmizə gəldiyini deyən qonaqlar Azərbaycanın biznes və investisiya üçün cəlbedici ölkə olduğunu vurğulayaraq, bu sahədə əməkdaşlığın perspektivlərini müzakirə ediblər.
Görüşdə Azərbaycan-İsrail və Azərbaycan-ABŞ əlaqələrinin perspektivləri barədə fikir mübadiləsi aparılıb.

## “BAKI ŞƏHƏRİNDƏ NƏQLİYYAT MƏSƏLƏLƏRİ İLƏ BAĞLI DÖVLƏT PROQRAMI HAZIRLANIR”

Biz nəqliyyat məsələlərini həmişə diqqət mərkəzində saxlamışıq və son 15 il ərzində Bakı şəhərində bir çox böyük layihələr icra edildi, yeni metro stansiyaları istifadəyə verildi, yol qovşaqları, tunellər, körpülər inşa edildi, yeni yollar salındı. Əgər biz bu işləri görməsəydik, bu gün, ümumiyyətlə, Bakı şəhərində nəqliyyat iflic vəziyyətinə düşərdi.
Bu sözləri Prezident İlham Əliyev nəqliyyat məsələlərinə həsr olunmuş müşavirədə deyib. ***“Amma yenə də görürük ki, növbəti böyük bir proqramın qəbul olunmasında böyük fayda olacaq. Bu məqsədlə bir müddət bundan əvvəl Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə dövlət proqramının hazırlanmasına dair müvafiq göstərişlər vermişəm və bir neçə ay ərzində bu proqram üzərində iş aparılıb”***, - deyə dövlətimizin başçısı əlavə edib.

## “BU GÜN AZƏRBAYCAN AVRASİYANIN ƏVƏZOLUNMAZ NƏQLİYYAT MƏRKƏZLƏRİNDƏN BİRİDİR”

Bu gün Avrasiyanın nəqliyyat xəritəsini Azərbaycansız, onun nəqliyyat infrastrukturu olmadan təsəvvür etmək mümkün deyil.
Bu sözləri Prezident İlham Əliyev nəqliyyat məsələlərinə həsr olunmuş müşavirədə söyləyib.
***“Hazırda bizim ərazimizdən Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri keçir. Bu dəhlizlər üzrə daşınan yüklərin həcmi ildən-ilə artır”***, - deyən dövlətimizin başçısı əlavə edib ki, yüklərin daha səmərəli daşınması üçün fiziki infrastrukturla yanaşı, digər addımlar da atılır. Qonşu ölkələrlə yeni əməkdaşlıq formatlarının yaradıldığını, ortaq, müştərək müəssisələrin qurulduğunu vurğulayan Prezident qeyd edib: ***“Bir sözlə, bu gün Azərbaycan Avrasiyanın əvəzolunmaz nəqliyyat mərkəzlərindən biridir”.***



## “ERMƏNİSTAN ÖHDƏLİKLƏRİNİ YERİNƏ YETİRƏRƏK AZƏRBAYCANDAN AZƏRBAYCANA MANEƏSİZ KEÇİD VERMƏLİDİR”

Həm beynəlxalq müstəvidə, həm Ermənistanla ikitərəfli təmaslar əsnasında biz daim bir məsələni qeyd edirik ki, Azərbaycandan Azərbaycana maneəsiz keçid olmalıdır. Heç bir yoxlamadan keçmədən, heç bir maneə ilə üzləşmədən Azərbaycandan Azərbaycana rahat və azad keçid olmalıdır. Bu, bizim tələbimizdir.
Bu fikirləri Prezident İlham Əliyev nəqliyyat məsələlərinə həsr olunmuş müşavirədə səsləndirib. Sovet hakimiyyətinin 1920-ci ildə Qərbi Zəngəzuru əlimizdən aldığını və Azərbaycan xalqına qarşı cinayət törətdiyini xatırladan dövlətimizin başçısı, həmçinin qeyd edib:
***“Biz Zəngəzuru unutmamışıq və unutmayacağıq. Yenə də deyirəm, bizim Ermənistana ərazi iddiamız yoxdur. Ancaq Ermənistan öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirərək Azərbaycandan Azərbaycana maneəsiz keçid verməlidir”.***

## “ZƏNGƏZUR DƏHLİZİ ARTIQ DÜNYADA QƏBUL EDİLMİŞ TERMİNDİR”

Yeni layihələr arasında Zəngəzur dəhlizini qeyd etmək istərdim. Zəngəzur dəhlizi layihəsi Azərbaycan tərəfindən irəli sürülmüşdür.
Bu barədə Prezident İlham Əliyev nəqliyyat məsələlərinə həsr olunmuş müşavirədə bildirib. Dövlətimizin başçısı qeyd edib: ***“İkinci Qarabağ müharibəsindəki Zəfərimizdən sonra bu məsələ beynəlxalq gündəliyə, beynəlxalq leksikona salındı və bu gün Zəngəzur dəhlizi artıq dünyada qəbul edilmiş ifadədir, qəbul edilmiş termindir. Əlbəttə ki, biz bu dəhlizin açılması üçün praktiki addımlar atırıq”.***

## DÖVLƏT BAŞÇISI BAKI-TBİLİSİ-QARS LAYİHƏSİNİN İCRASI İLƏ ƏLAQƏDAR ÜZLƏŞİLƏN MÜQAVİMƏTDƏN DANIŞIB

Prezident İlham Əliyev nəqliyyat məsələlərinə həsr olunmuş müşavirədə Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin icrası zamanı ölkəmizin üzləşdiyi çətinliklərdən danışıb.
Dövlətimizin başçısı bununla bağlı deyib: ***“Biz bu layihəni icra etmək istəyəndə böyük müqavimətlə üzləşmişdik. Onu indi mən deyə bilərəm. Xüsusilə Amerika Birləşmiş Ştatları buna etiraz edirdi. Səbəb yenə də ermənipərəst siyasətlərində idi. Çünki hesab edilirdi ki, bu layihə Ermənistanı kənarda qoyur. Buna görə ovaxtkı Gürcüstan rəhbərliyinə Amerika dövləti tərəfindən çox ciddi təzyiq göstərilmişdi ki, Gürcüstan buna razılıq verməsin. Biz bir neçə il Gürcüstan tərəfi ilə danışıqlar aparmışdıq və nəhayət razılığa gələ bildik”.***

## “SÜLH KƏSİŞMƏSİ” LAYİHƏSİNİN AZƏRBAYCANSIZ İKİ QƏPİKLİK DƏ QİYMƏTİ YOXDUR”

Ermənistan dırnaqarası “Sülh kəsişməsi” layihəsini ortalığa atıb və indi dünyada bir ölkə qalmayıb ki, o ölkəyə bu layihə təqdim edilməsin. Halbuki bu dırnaqarası layihənin Azərbaycansız iki qəpiklik də qiyməti yoxdur.
Bu barədə Prezident İlham Əliyev nəqliyyat məsələlərinə həsr olunmuş müşavirədə bildirib.
***“Əgər siz bu layihəni doğrudan da həyata keçirmək istəyirsinizsə, ilk növbədə, Azərbaycana müraciət etməlisiniz. Çünki bizsiz bu, sadəcə olaraq, kağız parçasıdır, bizim şərtlərimiz isə ədalətlidir, beynəlxalq hüquqa əsaslanır və Ermənistanın özünün götürdüyü öhdəliklərinə əsaslanır”***, - deyə dövlətimizin başçısı əlavə edib.

## “HEYDƏR ƏLİYEV BEYNƏLXALQ HAVA LİMANINDA YENİ TERMİNAL KOMPLEKSİ İNŞA EDİLƏCƏK”

Heydər Əliyev Beynəlxalq Hava Limanı keçən il rekord sayda - yeddi milyondan çox sərnişin daşıyıb. Nazirlik (Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi – red.) tərəfindən aparılan təhlil göstərir ki, bu rəqəm daha da artacaq və təklif verildi ki, Heydər Əliyev Beynəlxalq Hava Limanında yeni terminal kompleksi inşa edilsin. Mən də öz dəstəyimi verdim.
Bu sözləri Prezident İlham Əliyev nəqliyyat məsələlərinə həsr olunmuş müşavirədə deyib.
Dövlətimizin başçısı bildirib: ***“İndi bu yeni terminal kompleksinin layihəsi və texniki-iqtisadi əsaslandırılması hazırlanır. Artıq buna start verilmişdir və bu da gələcək sərnişinlərin sayını qəbul etmək üçün bizə imkan yaradacaq. Yəni ki, biz, o cümlədən hava nəqliyyatı üzrə beynəlxalq mərkəzə çevriləcəyik”.***

## “BAKI VƏ ONUN ƏTRAFINDA YERLƏŞƏN ƏRAZİLƏRLƏ BAĞLI YENİ DÖVLƏT PROQRAMININ QƏBUL EDİLMƏSİ ZƏRURİDİR”

Bakı şəhərinə və onun ətrafında yerləşən ərazilərə, burada yenə də deyirəm, yeni dövlət proqramının qəbul edilməsi zəruridir.
Bu sözləri Prezident İlham Əliyev nəqliyyat məsələlərinə həsr olunmuş müşavirədə söyləyib.
Dövlətimizin başçısı vurğulayıb ki, bu, çox böyük proqram olacaq, böyük maliyyə tutumlu proqram olacaq. Bütün aidiyyəti qurumların birgə fəaliyyətini və səmərəli işlərini tələb edən proqram olacaq.

## “AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ GÖRÜLƏN İŞLƏRİN ƏSASINI NƏQLİYYAT LAYİHƏLƏRİ TƏŞKİL EDİR”

Azad edilmiş ərazilərdə görülən işlərin əsasını nəqliyyat layihələri təşkil edir. 3400 kilometrə yaxın avtomobil yolu - hələlik cəmi 44 avtomobil yolu layihəsi icra edilib, ya da ki, icra edilməkdədir.
Bu barədə Prezident İlham Əliyev nəqliyyat məsələlərinə həsr olunmuş müşavirədə bildirib.
Dövlətimizin başçısı qeyd edib ki, eyni zamanda, 45 tunel, 447 körpü, 16 viaduk nəzərdə tutulub. Bunlardan 28 tunel, 392 körpü və 9 viadukun tikintisi tamamlanmışdır. ***“Horadiz-Ağbənd dəmir yolunun 60 faizi inşa edilib. Bərdə-Ağdam dəmir yolunun 94 faizi inşa edilib”***, - deyə Prezident əlavə edib.

# Türkiyə-Azərbaycan-Özbəkistan biznes-forumu keçirilib



Ankara şəhərində Türkiyənin Ticarət, Azərbaycanın İqtisadiyyat və Özbəkistanın İnvestisiya, Sənaye və Ticarət nazirliklərinin dəstəyi, Türkiyə Palatalar və Birjalar Birliyi (TOBB), Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi – AZPROMO və Özbəkistanın İnvestisiyaların Təşviqi Agentliyinin birgə təşkilatçılığı ilə Türkiyə-Azərbaycan-Özbəkistan biznes-forumu keçirilib.

Tədbirdə hər üç ölkədən tikinti, tütünçülük, qida sənayesi, əczaçılıq, tikinti materialları, turizm, tekstil, sənaye, logistika və digər sahələrdə fəaliyyət göstərən 200-dək sahibkar iştirak edib.

Biznes-forumda Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov, Türkiyənin ticarət naziri Ömer Bolat, Özbəkistanın investisiyalar, sənaye və ticarət naziri Ləziz Kudratov iştirak ediblər.

Tədbirdə Azərbaycanın Türkiyə və Özbəkistanla əlaqələrinin inkişafı, potensial birgə layihələr barədə məlumat verilib. TDT-nin 11-ci Zirvə görüşü çərçivəsində üzv dövlətlər arasında imzalanmış Rəqəmsal İqtisadiyyat üzrə Tərəfdaşlıq Sazişi, dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə imzalanmış Qarabağ Bəyannaməsi, həmçinin Türk İnvestisiya Fondu strateji və iqtisadi əlaqələrin gücləndirilməsində mühüm rol oynayır.

Bildirilib ki, indiyədək Türkiyə Azərbaycan iqtisadiyyatına böyük həcmdə sərmayə qoyub və ölkələrimiz arasında investisiya üzrə işbirliyi genişlənir. Eləcə də, Azərbaycan sərmayəçiləri ölkələrimiz üçün vahid ekosistemin iştirakçıları kimi çıxış etmək əzmindədirlər. Qeyd olunub ki, Azərbaycan tərəfindən Türkiyə iqtisadiyyatına 20 milyard dollaradək investisiya yatırılıb.

Biznes-forumda Azərbaycanın Özbəkistanla ticarət dövriyyəsinin getdikcə artdığı vurğulanıb. Orta Dəhliz üzrə nəqliyyat-tranzit daşımalarında da artım var. 500 milyon dollarlıq kapitala malik Azərbaycan-Özbəkistan İnvestisiya Şirkətinin xətti ilə 8 layihə üzrə işlər görülür. Bildirilib ki, Özbəkistan Prezidentinin özbək xalqı adından Qarabağa hədiyyə olaraq inşa etdirdiyi Füzuli rayonunda Mirzə Uluqbəy adına məktəbin fəaliyyətə başlaması, Xankəndi şəhərində tikiş fabrikinin açılışı ölkələrimiz və xalqlarımız arasında əsl qardaşlıq nümunəsidir.

Tədbir B2B formatında görüşlərlə davam etdirilib.

# Azərbaycan-Türkiyə iqtisadi əməkdaşlığının prioritet istiqamətləri müzakirə edilib



İqtisadiyyat naziri Mikayıl Cabbarovun Türkiyəyə səfəri çərçivəsində keçirilən görüşlərdə iqtisadi əməkdaşlığın prioritet istiqamətləri, bir sıra sahələr üzrə tərəfdaşlığın gücləndirilməsi imkanları müzakirə edilib.

Bildirilib ki, nazir Mikayıl Cabbarov Türkiyəyə səfəri çərçivəsində bu ölkənin ticarət naziri Ömər Bolatla görüşüb. Görüşdə hər iki ölkənin dövlət başçılarının səyləri və qardaşlıq münasibətləri sayəsində iqtisadi əməkdaşlığın bütün istiqamətlər üzrə inkişaf etdiyi vurğulanıb. Türkiyənin Azərbaycanın ikinci əsas ticarət və ixrac tərəfdaşı olduğu, Preferensial Ticarət Sazişi çərçivəsində güzəşt tətbiq edilən məhsulların sayının artırılmasının ticarət əlaqələrinin artımını təşviq etdiyi diqqətə çatdırılıb. Türkiyə şirkətləri Azərbaycanın işğaldan azad olunmuş ərazilərindəki sənaye parklarında yaradılan əlverişli biznes mühitindən yararlanmağa dəvət olunub.

Tərəflər Azərbaycan-Türkiyə iqtisadi tərəfdaşlığının gücləndirilməsi, ticarət dövriyyəsinin artırılması, KOB və biznes vahidləri arasında əlaqələrin fəal dəstəklənməsi və investisiyaların təşviqi üzrə ortaq hədəflərə çatmaq üçün mövcud imkanları müzakirə ediblər.

Mikayıl Cabbarov, həmçinin Türkiyəyə səfəri çərçivəsində bu ölkənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktarla da görüşüb. Görüşdə Azərbaycan və Türkiyə arasında iqtisadi əməkdaşlığın genişləndiyi və ölkələrimizin xüsusilə enerji sahəsində bir çox mühüm layihələr həyata keçirdiyi vurğulanıb.

# Konqo Enerji və İnvestisiya Forumunda Azərbaycanla tərəfdaşlıq müzakirə ediləcək

Martın 24-dən 26-dək Konqo Respublikasının paytaxtı Brazzavildə I Konqo Enerji və İnvestisiya Forumu (CEIF 2025) keçiriləcək. Qlobal enerji sektorunun liderlərini və siyasətçiləri bir araya gətirəcək forumda investisiya imkanları araşdırılacaq və Konqonun neft-qaz sektorundakı yeniliklər müzakirə ediləcək.

AZƏRTAC Afrika Press Agentliyinə (APA) istinadla xəbər verir ki, forumda Konqonun qaz ehtiyatlarının kommersiyalaşdırılması və qazdan elektrik enerjisi istehsalı layihələrinin inkişafı məsələlərinə diqqət yetiriləcək. Tədbirdə, həmçinin enerji sektorunda texnologiya transferi və potensialın artırılması məsələləri, Qazaxıstan, Azərbaycan və digər ölkələrlə tərəfdaşlıqlar müzakirə olunacaq, Konqonun LNG layihəsi təqdim ediləcək və onun ölkənin təbii qaz ixrac potensialına təsiri haqqında danışılacaq.

Forumun məqsədi beynəlxalq sərmayədarları cəlb etmək və Konqo Respublikasını enerji sahəsində investisiya üçün bir məkana çevirməkdir.

# Dünya Bankı Azərbaycanla yeni Ölkə Tərəfdaşlıq Çərçivəsini müzakirə edib

Dünya Bankı Qrupunun (DBQ) Direktorlar Şurası Azərbaycanla yeni Ölkə Tərəfdaşlıq Çərçivəsini (ÖTÇ) müzakirə edib.

ÖTÇ növbəti beş ildə ölkə ilə strateji münasibətlərin istiqamətlərini müəyyənləşdirir və Azərbaycanın daha rəqabətqabiliyyətli, daha yaşıl və inklüziv iqtisadiyyata keçidini və ölkənin qarşısında duran əsas inkişaf çağırışlarının öhdəsindən gəlməyi dəstəkləyəcək.

Bu strategiya iki yüksəksəviyyəli nəticəyə fokuslanıb: məhsuldarlığın artırılması, daha yaxşı məşğulluq, iqtisadiyyatın dayanıqlığı və dözümlülüyünün artırılması. Məxsusən, ÖTÇ Azərbaycanda aşağıdakıları dəstəkləyəcək:

- Biznes mühitinin təkmilləşdirilməsi və daha çox və daha yaxşı məşğulluq imkanları, o cümlədən iş yerlərinin yaradılmasına və mikro, kiçik və orta sahibkarlığın inkişafına dəstək, davamlı və yaşıl maliyyəyə diqqət yetirməklə maliyyə resurslarına çıxışın genişləndirilməsi, qadın sahibkarlara və həssas qruplara dəstək vasitəsilə inklüzivliyin təşviq olunması;
- Nəqliyyat və rəqəmsal bağlantıların gücləndirilməsi, o cümlədən ticarət və tranzit üçün Orta Dəhlizin inkişaf etdirilməsi, rəqəmsallaşdırma və rəqəmsal bağlantıların təkmilləşdirilməsi, süni zəka kimi yeni texnologiyaların tətbiqinin təşviq olunması;
- Bərpaolunan energetikaya keçidin sürətləndirilməsi, o cümlədən enerjinin ötürülməsi infrastrukturunun gücləndirilməsi, bərpaolunan energetika layihələrinə, batareya saxlanclarına özəl investisiyaların cəlb olunması və yaşıl energetika dəhlizlərinin təşviq olunması;
- İqlim dəyişmələrinə uyğunlaşmanın genişləndirilməsi, o cümlədən yaşıl binalar da daxil olmaqla iqlim dəyişmələrinin təsirinə dözümlü şəhər ekosistemləri, iqlim baxımından ağıllı kənd təsərrüfatı praktikaları, habelə özəl sektorun iştirakı da daxil olmaqla su təhlükəsizliyi və səmərəliliyi.

ÖTÇ Azərbaycanın 2022-2026-cı illər üzrə Sosial-İqtisadi İnkişaf Strategiyasına və iqlim dəyişmələri, qeyri-bərabərlik və kövrəklik kimi qlobal çağırışların həllinin vacibliyini vurğulayan Dünya Bankının Təkamül Yol Xəritəsinə uyğundur.

# Azərbaycanda həyat və qeyri-həyat sığortası bazarı böyüyüb



Ötən il Azərbaycanda həyat sığortası növlərinin hesabına 643,8 milyon manat sığorta haqqı toplanılıb.

Bu barədə Trend Azərbaycan Mərkəzi Bankından məlumat əldə edib.

Məlumata əsasən, bu, 2023-cü ildəki göstərici ilə müqayisədə 218,7 milyon manat və ya 51,5% çoxdur. Həmçinin, hesabat dövründə həyat sığortası növlərinin hesabına isə 477,4 milyon manat sığorta ödənişləri həyata keçirilib ki, bu da 2023-cü ildəki göstəriciyə nisbətən 232,8 milyon manat və ya 95,1% çoxdur.

Bundan başqa, ötən il ölkədə qeyri-həyat sığortası növlərinin hesabına 367,5 milyon manat sığorta haqqı toplanılıb. Bundan başqa, bu, 2023-cü ildəki göstərici ilə müqayisədə 64,5 milyon manat və ya 21,3% çoxdur.

Eyni zamanda dövr ərzində qeyri-həyat sığortası növlərinin hesabına 135,5 milyon manat sığorta ödənişləri həyata keçirilib ki, bu da illik ifadədə 42,6 milyon manat və ya 45,9% çoxdur.

# Azərbaycan-Pakistan enerji əlaqələrinin genişləndirilməsi üzrə əməkdaşlıq imkanları dəyərləndirilib



Energetika naziri Pərviz Şahbazov Pakistanın özəlləşdirmə, İnvestisiya Şurası və kommunikasiya üzrə federal naziri Abdul Alim Xanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə dostluq və qardaşlığa əsaslanan Azərbaycan-Pakistan münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişafından məmnunluq ifadə edilib. İkitərəfli əlaqələrin yeni səviyyəyə yüksəldilməsində enerji sahəsində mövcud imkanların reallaşdırılmasının əhəmiyyəti vurğulanıb. Hər iki ölkənin enerji şirkətlərinin əməkdaşlıq əlaqələrinin genişləndirilməsi, gündəlikdə olan layihələrlə bağlı müzakirələr aparılıb. Həmçinin Azərbaycanın bərpaolunan enerji sahəsində həyata keçirdiyi sənaye miqyaslı layihələr, dənizdə külək enerjisinin istifadəsi və yaşıl enerjinin ixrac marşrutlarının yaradılması kursu çərçivəsində imkanlar nəzərdən keçirilib. Pakistan şirkətləri yaşıl enerji və enerji səmərəliliyi sahələrində əməkdaşlığa dəvət edilib. Söhbət zamanı, həmçinin Bakıda təsis olunan ECO-UNIDO Təmiz Enerji Mərkəzinin fəaliyyətinə dair fikir mübadiləsi aparılıb və ikitərəfli enerji tərəfdaşlığının möhkəmləndirilməsinə qarşılıqlı dəstək ifadə olunub.

# GEP 2025: İqtisadi artım tempində sabitləşmə proqnozlaşdırılır

Dünya Bankının "Qlobal İqtisadi Perspektivlər 2025" (GEP 2025) hesabatının yanvar buraxılışı dərc olunub. Hesabatda qlobal iqtisadiyyatın 2025-2026-cı illərdə 2,7 faiz artım tempində sabitləşəcəyi proqnozlaşdırılır. Qeyd olunur ki, qlobal ÜDM-də inkişaf etməkdə olan ölkələrin payı 2000-ci ildən bəri 25 faizdən 45 faizə yüksəlsə də, bu ölkələr hələ də yüksək borc səviyyələri və ticarət gərginlikləri kimi bir çox çətinliklərlə üzləşirlər.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) Strateji planlaşdırma şöbəsinin aparıcı məsləhətçisi Lətif Zeynallı bildirib ki, "Qlobal İqtisadi Perspektivlər" hesabatı qlobal iqtisadiyyatın gələcək inkişafını və potensial risklərini qiymətləndirən mütəmadi hesabatdır. "Bu hesabatda dünyadakı iqtisadi artım tempinə, inkişaf etməkdə olan və inkişaf etmiş ölkələrdəki iqtisadi şəraitə, regional fərqliliklərə və qlobal iqtisadiyyata təsir göstərən müxtəlif amillərin təhlili aparılır. Hesabatda, həmçinin müxtəlif iqtisadi sahələrdə baş verə biləcək dəyişikliklərlə bağlı ölkələrə tövsiyələr verilir",- deyə o qeyd edib.

Lətif Zeynallı bildirib ki, "Qlobal İqtisadi Perspektivlər 2025" hesabatında inflyasiyanın hədəf səviyyələrinə yaxınlaşmasının və pul siyasətinin yumşaldılmasının qlobal artımı dəstəklədiyi vurğulanır: "Bununla belə, inkişaf etməkdə olan ölkələrdəki iqtisadi qeyri-müəyyənlik və geosiyasi gərginliklər uzunmüddətli artım perspektivlərini zəiflədir. O cümlədən hesabatda, aşağı gəlirli ölkələrin iqtisadi inkişaf tempinin yavaşlamasına baxmayaraq, struktur islahatları və investisiya qoyuluşlarının artırılması yolu ilə bu vəziyyətin yaxşılaşdırılmasının mümkün olduğu qeyd edilir. Bundan başqa, 2025 və 2026-cı illərdə əmtəə qiymətlərinin müvafiq olaraq 6 və 2 faiz aşağı düşəcəyi gözlənilir və bu da qiymətləri 2020-ci ildən bəri ən aşağı səviyyəyə gətirəcək. Buna baxmayaraq, əmtəə qiymətləri pandemiyadan əvvəlki səviyyələrlə müqayisədə hələ də yüksəkdir, bu isə bir çox əmtəə ixracatçısında iqtisadi fəaliyyəti dəstəkləyir".

İİTKM-in eksperti bildirir ki, hesabatda "Brent" markalı neftin bir barelinin qiymətinin 2025-ci ildə orta hesabla 72 dollar, 2026-cı ildə isə 71 dollar səviyyəsində olacağı gözlənilir.

# Dövlətimizin başçısı Aleksandr Lukaşenkonu təbrik edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 27-də Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkoya zəng edib.
Dövlətimizin başçısı Aleksandr Lukaşenkonu Belarus Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməsi münasibətilə təbrik edib, fəaliyyətində uğurlar arzulayıb.
Prezident Aleksandr Lukaşenko göstərilən diqqətə və təbrikə görə Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlığını bildirib.
Telefon danışığı əsnasında dövlət başçıları iki ölkə arasında dostluq və tərəfdaşlıq əlaqələrinin bundan sonra da yüksələn xətt üzrə inkişaf edəcəyinə əminliklərini ifadə edərək, əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıblar.

# Azərbaycan nümayəndə heyəti Belarusda keçirilən prezident seçkilərini müşahidə ediblər



Milli Məclisin bir qrup deputatı Belarusda keçirilən prezident seçkilərini müşahidə etmək üçün yanvarın 24-dən 27-nədək bu ölkənin Minsk şəhərində səfərdə olublar.
Səfər çərçivəsində Milli Məclisin sədr müavini Musa Qasımlı, Azərbaycan-Belarus parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Ziyad Səmədzadə və deputat Bəhruz Məhərrəmov ikitərəfli əsasda, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov MDB İcraiyyə Komitəsinin, deputatlar Xanlar Fətiyev və Sabir Hacıyev isə MDB PA-nın xətti ilə Belarusda yanvarın 26-da keçirilən prezident seçkilərinə hazırlıqla tanış olublar və seçki günü məntəqələrdə prosesin gedişini, vətəndaşların fəallığını izləyiblər.
Milli Məclisin deputatı Bəhruz Məhərrəmov seçkinin nəticələri ilə bağlı şərhində bildirib ki, müşahidəçilər üçün qanunvericilikdə nəzərdə tutulmuş şərait yaradılıb:
*"Beynəlxalq müşahidəçi qismində Azərbaycan parlament nümayəndə heyəti olaraq Milli Məclisin sədr müavini Musa Qasımlı və parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Ziyad Səmədzadə ilə birlikdə Belarusda keçirilən prezident seçkilərinin gedişatını Minsk və Zaslau şəhərlərində izlədik. Seçkilər kifayət qədər sakit, ictimai qayda və asayişin təmin olunması şəraitində, seçki fəallığı ilə müşahidə olundu. Seçicilər çox rahat və şəffaf şəraitdə iradələrini ifadə edə bildilər. O cümlədən müşahidəçilər üçün qanunvericilikdə nəzərdə tutulmuş bütün şərait yaradıldı ki, proseslə bağlı hüquqlarını həyata keçirsin".*



Deputat seçkilərlə bağlı formalaşdırılmağa çalışan mənfi rəy barədə bunları deyib:
*"Bəzən insanlar Belarusa və bu ölkədə dövlət-hakimiyyət münasibətlərinə Qərb təbliğat maşınının pəncərəsindən baxır, lakin birmənalı şəkildə demək olar ki, bu ölkə barədə Qərb təbliğatı tam mənada yalan üzərində qurulub. Məsələn, Qərb təsisatları seçkilərdən az qala həftələr əvvəl nəticələrlə bağlı bəyanatlar verdilər və bu o deməkdir ki, onlar üçün belarusluların suveren iradəsinin heç bir önəmi yoxdur. İnsan haqları və demokratiya dəyərləri altında pərdələnən Qərb imperializmi, ələlxüsus şər yuvası olan Avroparlamentin timsalında Avrostrukturlar üçün xalqların müstəqil iradəsi, suverenliyi, haqları önəm daşımır. Sadəcə Qərb imperializmi girə bilmədiyi mətbəxləri çirkli elan edir, marionet olmayan iqtidarlar Qərb üçün avtomatik düşmənə çevrilir.*






*Eyni zamanda avtomatik olaraq bu proseslərdə imperializmin bütün coğrafiyalar üzrə 5-ci kolonları aktivləşir, eyni tezisləri tirajlayırlar. Azərbaycanda da antimilli ünsürlərin bəyanatları və paylaşımları fonunda eyni yanaşma müşahidə olundu. Bu mənada Belarusda dinc şəraitdə baş tutmuş seçkiləri Belarus xalqının qələbəsi hesab edə bilərik".*

# "Prezident seçkiləri Belarusun sakit ritmini pozmadı"

Bunu Belarus Prezidenti Aleksandr Lukaşenko yanvarın 28-də Panafrikan Parlamentinin nümayəndə heyəti ilə görüşdə bildirib.
***"Düşünürəm ki, siz bu siyasi kampaniyanın ölkənin sakit ritmini pozmadığını gördünüz. Seçkilər yüksək təşkilati səviyyədə və Qərbdə bəzilərinin gözlədiyi kimi heç bir sarsıntı olmadan keçib"***, - o bildirib.
Qeyd edək ki, seçkilərdə A.Lukaşenko seçicilərin 86,82 %-nin səsini qazanıb.




# Bələdiyyə seçkilərində yekun seçici aktivliyi açıqlanıb

Saat 19:00-a olan məlumata əsasən, bələdiyyə seçkilərində 1 874 810 seçici səsvermə hüququndan istifadə edib.
Bu barədə Mərkəzi Seçki Komissiyası Katibliyinin İnformasiya Mərkəzinin rəhbəri Fərid Orucov məlumat verib.
F.Orucov bildirib ki, seçici fəallığı 31,45 % olub.
Qeyd edək ki, yanvarın 29-da saat 19:00-da Azərbaycanda



bələdiyyə seçkilərində səsvermə başa çatıb. Bələdiyyə seçkilərində 118 seçki dairəsində 685 bələdiyyəyə 8 071 üzv seçiləcək. 16 092 namizədin adı seçki bülletenlərinə daxil edilib. Səs vermək hüququna malik 5 961 987 seçicinin adı siyahıya daxil edilib. Bələdiyyə seçkilərində MSK və dairə seçki komissiyalarında 70 625 müşahidəçi akkreditasiyadan keçib. 1000 seçki məntəqəsində veb-kameralar quraşdırılıb.

# AYİB Azərbaycanda "yaşıl" iqtisadiyyata qoyduğu investisiyaların həcmini açıqlayıb

Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) 2024-cü ildə Azərbaycanda olan səkkiz layihəyə 196 milyon avro investisiya qoyub.
Ayrılmış vəsaitlərin böyük hissəsi özəl sektora və "yaşıl" iqtisadiyyatla bağlı təşəbbüslərə yönəldilib.
AYİB iri günəş elektrik stansiyalarının birgə maliyyələşdirilməsində iştirak etməklə Bakıda keçirilən COP29-da həlledici rol oynayıb. Nəticədə, Azərbaycanda maliyyələşən bərpaolunan enerji mənbələrinin ümumi gücü 1,2 qiqavatı ötüb. Bank eyni zamanda bərpa oluna bilən enerji mənbələri üzrə ölkədə keçirilən ilk hərraca dəstək olub ki, bu da Qaradağ rayonunda 100 meqavat gücündə günəş elektrik stansiyalarının inşasına yol açıb.
Bundan başqa, AYİB nəqliyyat infrastrukturuna sərmayə qoyaraq, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinə (ASCO) 38,7 milyon avro həcmində kredit ayırıb. Həmçinin sözügedən bank ticarət sektoruna da dəstək verərək, Azərbaycan Beynəlxalq Bankı üçün 46,7 milyon avro dəyərində ticarətin maliyyələşdirilməsi proqramını təsdiqləyib ki, bu da yerli biznesin qlobal bazarlara inteqrasiyasını təşviq edir.
Kiçik və orta sahibkarlıq da AYİB-in dəstəyindən faydalanıb. Bank "AccessBank" və




"Bank Respublika"ya kreditlər ayırıb, eyni zamanda "AccessBank"la 15 milyon avroluq müqavilə bağlayaraq Azərbaycanda risklərin bölüşdürülməsi mexanizmini bərpa edib.
***"2024-cü il Azərbaycanda bizim üçün uğurlu il olub"***, - deyə AYİB-in Azərbaycandakı nümayəndəliyinin rəhbəri Natali Muravidze bildirib.

# Naxçıvanın Babək rayonunun su təminatı yaxşılaşdırılacaq

Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Nehrəm qəsəbəsində torpaq sahələrinin su təminatı yaxşılaşdırılacaq.
Artıq bununla bağlı Su Meliorasiya Xidmətində müvafiq işlərə yekun vurulub.
Məlumata əsasən, sözügedən qəsəbənin torpaq sahələrinin su təminatının yaxşılaşdırılması üçün Araz çayından qidalanan nasos stansiyalarının və təzyiqli boru xəttinin tikintisi işləri həyata keçiriləcək.
Su Meliorasiya Xidməti qeyd olunan işlərin icrasını "Hovers Group" Məhdud Məsuliyyətli Cəmiyyətinə (MMC) həvalə edib və müqavilə bağlayıb.
Müqaviləyə əsasən, MMC-yə 28,7 milyon manat ödənilib.

# Ötən il Azərbaycan 1,7 milyard dollarlıq yüksək texnologiyalar məhsulları idxal edib

Ötən ilin əvvəlindən bu ilin yanvarın 1-dək Azərbaycana 1,7 milyard ABŞ dolları dəyərində yüksək texnologiyalar məhsulları idxal edilib.
Bu barədə Trend Dövlət Gömrük Komitəsindən məlumat əldə edib.
Məlumata görə, bu, 2024-cü ilin dekabrın 1-i vəziyyətinə olan göstəricilərlə müqayisədə 202,5 milyon ABŞ dolları və ya 14% çoxdur.



Hesabat dövründə yüksək texnologiyalar məhsulları idxalı ölkənin ümumi idxalının 8,14%-ni təşkil edib.
Eyni zamanda bu ilin yanvarın 1-nə Azərbaycandan 183,8 milyon ABŞ dolları dəyərində yüksək texnologiyalar məhsulları ixrac olunub ki, bu da 2024-cü ilin dekabrın 1-nə olan göstəricilərə nisbətən 3,8 milyon ABŞ dolları və ya 2,1% çoxdur.

# Azərbaycan gəncliyi bu gün

**2 fevral gününün Gənclər Günü kimi elan olunması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır.** Məhz Ulu Öndərin hakimiyyətə ikinci dəfə qayıdışından sonra Azərbaycanda dövlət gənclər siyasətinin əsası qoyuldu. 1994-cü ildə dövlət gənclər siyasətini icra edən Gənclər və İdman Nazirliyi yaradılıdı. Ulu Öndərin prezidentliyi dövründə ölkə gəncləri onun diqqət və qayğısını daim öz üzərlərində hiss etmişlər. 1996-cı il 2 fevral tarixində məhz Ulu Öndər Heydər Əliyevin dəstəyi ilə gənclərin 1-ci forumu keçirilidi. 1997-ci ildən isə Prezidentin sərəncamı ilə 2 fevral Azərbaycanda Gənclər Günü kimi qeyd olunmağa başladı. Əsası Ulu Öndər tərəfindən qoyulan dövlət gənclər siyasətinin nəticəsidir ki, bu gün ölkəmizdə idarəetmə bacarığı ilə seçilən intellektual, dünyagörüşlü yeni nəsil yetişmişdir. Bugünkü Azərbaycan gəncliyi Ümummilli Lider Heydər Əliyevin xalqımız qarşısındakı xidmətlərini yüksək qiymətləndirir, onun bizə bəxş etdiyi Azərbaycanın müstəqilliyini, elmin, təhsilin inkişafını, ölkəmizin siyasi, iqtisadi yüksəlişini, gənclərə olan diqqəti və qayğını dərin ehtiram hissi ilə xatırlayır.

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan siyasi kurs bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilr. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin inkişafına təkan vermiş, onların özlərini cəmiyyətdə təsdiq etməsində mühüm rol oynamışdır. Bu siyasət çərçivəsində uğurla icra olunan bir sıra tədbirləri sadalamaqla biz gənclərimizin dövlətçiliyə bağlı, intelektual, yüksək dünyagörüşlü bir qüvvə kimi formalaşmasının şahidi olarıq.

**Prezident İlham Əliyevin bu sahəyə olan diqqəti özünü ayrıca bir ilin (2007-ci il) "Gənclər ili" elan edilməsində də göstərdi. 2007-ci ildə prezident İlham Əliyev "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi barədə sərəncam imzaladı.**

Prezident İlham Əliyevin gənclərə dəstək yönündə verdiyi mühüm və əlamətdar qərarlardan biri də ölkədə ilk dəfə "Gənclər üçün Prezident Mükafatı"nın təsis edilməsi oldu.



Bu gün qətiyyətlə deyə bilərik ki, ölkə gəncləri Prezident İlham Əliyevin uğurla apardığı daxili və xarici kursu alqışlayr, bu siyasətin icrasında da onun yanındadaır.

Prezident İlham Əliyev 2022-ci il fevralın 2-də Bakıda Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumunda demişdir: **Azərbaycanda 29 yaşına qədər insanlar gənclər sayılır. Əgər belə demək mümkündürsə, bu gün ən yaşlı gəncin mən Prezident vəzifəsinə birinci dəfə seçiləndə 11 yaşı var idi. Yəni, bu, reallıqdır. Mən çalışmışam ki, fəaliyyətim dövründə gənclərin tərbiyə olunması ilə bağlı daha çox işlər görək. Çox şadam, fəxr edirəm ki, Vətən uğrunda, torpaq uğrunda qabağa gedənlərin əksəriyyəti gənclər idi. Bu, hər birimiz üçün qürur mənbəyidir. Çünki elə bir gənc nəsil yetişdi ki, hətta Qarabağı görməyən, o acı tarixi görməyən gənclər Qarabağ uğrunda, Vətən uğrunda, milli ləyaqət uğrunda ölümə gedirdilər və şəhid oldular, qazi oldular və müzəffər Ordumuzun şöhrətini yüksəklərə qaldırdılar. Əgər bu siyasət olmasaydı, əgər gənclər vətənpərvərlik ruhunda tərbiyə almasaydılar, bilmək olmazdı müharibənin nəticələri necə ola bilərdi.**

Biz azad ölkədə yaşayırıq, sabitlik olan ölkədə yaşayırıq, özünə güvənən ölkədə yaşayırıq. Biz haqlı olaraq fəxr edirik ki, Azərbaycan vətəndaşlarıyıq və gənclər həm öz gələcək həyatını düzgün müəyyən etmək üçün və eyni zamanda, dövlətə maksimum xeyir vermək üçün fəal olmalıdırlar. Mən bu sözləri deməklə, eyni zamanda, Azərbaycan gənclərinə həm ürək sözlərimi deyirəm, həm də təşəkkür sözümü deyirəm. Çünki bir çox hallarda, xüsusilə Vətən müharibəsində gənclərin rolu həlledici olmuşdur və biz haqlı olaraq gənclərimizlə fəxr edə bilərik".

# İnternetdə daha çox vaxt keçirməyin kibertəhlükələrə məruz qalma riskinə təsiri

**Məlumatların çoxluğu və paylanması, xüsusilə sosial media platformalarında və internetdə çox vaxt keçirən insanların həyatında mühüm yer tutmağa başlayıb. Şəxsi məlumatların çox sayda fərqli mənbələrdə paylaşılması insanların daha çox onlayn hücuma məruz qalmasına səbəb ola bilər. Bu, xüsusilə fişing hücumlarının artmasına şərait yaradır. Fişing hücumları, saxta veb saytlar və ya e-poçtlar vasitəsilə istifadəçiləri aldatmağa çalışaraq, onların şəxsi məlumatlarını (şifrə, bank məlumatları və ya digər həssas məlumatlar) oğurlamağa cəhddir. İnternet üzərindən məlumat paylaşımının çox olmasını bir neçə səbəbə əsaslandırmaq olar:**

*- İnsanlar, öz şəxsi həyatlarını və fikirlərini geniş auditoriyaya açaraq, bəzən şəxsi məlumatlarını qorumağı unudurlar. Sosial media istifadəçiləri öz həyatlarını və fəaliyyətlərini paylaşmaqla yanaşı, şəxsi məlumatlarını (ad, doğum tarixi, ev ünvanı, iş yeri, şəkillər və s.) da paylaşırlar. Bu məlumatlar həm insanların şəxsi həyatlarına dair dəyərli məlumatları təqdim edir, həm də müxtəlif təhdidlər üçün zəmin yaradır. Açıq mənbələrə əsasən, 2023-cü ildə dünya üzrə 4.7 milyard insan sosial mediadan istifadə edir və bu rəqəmin 2024-cü ilin sonuna qədər 5 milyardadək artacağı proqnoz edilirdi.*

*- İnternet üzərindən alış-veriş etmək, bank xidmətlərindən istifadə etmək və digər onlayn xidmətlərdən yararlanmaq imkanı çox yayılıb. Bu məlumatların səhvən sızması fırıldaqçılıq və məlumat oğurluğuna yol aça bilər.*

*- Mobil tətbiqlər və veb saytlar istifadəçilərdən şəxsi məlumatlarını toplamaq üçün müxtəlif yollar istifadə edir. Bu tətbiqlər bəzən istifadəçinin icazəsi olmadan məlumatları toplayır və bu da şəxsi məlumatların sızmasına səbəb olur. Mobil tətbiqlər xüsusilə istifadəçilərin harada olduqları, hansı xidmətlərdən istifadə etdikləri və digər fərdi məlumatları izləyərək təhlükəsizlik riskləri yarada bilər.*

**Şəxsi məlumatları qorumaq və internetin təhlükəsizlik risklərini azaltmaq üçün bir neçə təklif vermək mümkündür:**

***1. Hər platforma üçün güclü və unikal şifrələr seçilməli və şifrə menecerlərindən istifadə edilməlidir;***

***2. Hesablara daxil olmaq üçün yalnız şifrə deyil, əlavə bir doğrulama faktoru (MFA) istifadə edilməlidir;***

***3. E-poçt və mesajlarla gələn şübhəli linklərdən və əlavələrdən uzaq durmaq lazımdır;***

***4. Sosial media və digər platformalarda şəxsi məlumatları minimuma endirmək lazımdır.***

İnternet istifadəsinin artması ilə yanaşı, zərərli proqram təminatları (malware) və fişing hücumları da daha geniş yayılmağa başlamışdır. İnterneti daha çox istifadə edən insanlar ehtiyatlı olmadan müxtəlif onlayn fəaliyyətlərdə iştirak etdikləri üçün daha çox bu təhlükələrə məruz qalır. Bu təhlükələrin nəticələri çox vaxt ciddi ola bilər, çünki zərərli proqramlar istifadəçilərin cihazlarına gizli şəkildə daxil olaraq şəxsi məlumatları oğurlaya və ya sistemləri zədələyə bilər. Fişing hücumları isə saxta e-maillər, mesajlar və saytlar vasitəsilə istifadəçiləri aldatmaq və onların məlumatlarını oğurlamaq məqsədini güdür.



**İnternetin geniş yayılması ilə zərərli proqramların yayılma yolu da asanlaşmışdır. Zərərli proqramlar müxtəlif üsullarla yayılır:**

***1. Zərərli proqramlar istifadəçiləri saxta e-poçtlara və ya şübhəli əlavələrə yönəldir. Bu əlavələr və ya linklər vasitəsilə cihazlara zərərli proqramlar yüklənə bilər.***

***2. Bəzən zərərli proqramlar qanuni tətbiqlər və proqramlar kimi göstərilir. İnsanlar bu proqramları yükləyərək öz cihazlarına təhlükə yaratmış olurlar.***

***3. İnternetdəki bəzi şübhəli saytlar və reklamlar vasitəsilə zərərli proqramlar istifadəçiyə xəbərdarlıq etmədən cihazına yüklənə bilər.***

2022-ci ildə McAfee şirkətinin araşdırmasına görə, dünya üzrə 20%-dən çox internet istifadəçisi zərərli proqramlar səbəbindən ciddi təhlükələrə məruz qalmışdır. Zərərli proqramların ən çox yayıldığı mənbələr arasında şübhəli reklamlar və saxta proqramlar ön plana çıxır.

**Fişing, istifadəçiləri aldatmağa çalışaraq, onların şəxsi məlumatlarını ələ keçirmək məqsədi güdür. Bu hücumlar müxtəlif saxta e-poçtlar, mesajlar və ya veb saytlar vasitəsilə həyata keçirilir. Fişing hücumlarının məqsədi istifadəçiləri öz məlumatlarını könüllü olaraq təqdim etməyə inandırmaqdır. Fişing hücumları müxtəlif üsullarla həyata keçirilə bilər:**

- Fişing hücumlarında saxta e-poçtlar və mesajlar istifadəçiləri müəyyən veb saytlara yönəldir və onların şifrələrini, kredit kartı məlumatlarını və ya digər həssas məlumatlarını oğurlayır;

- Fişing hücumları zamanı istifadəçiləri orijinal veb saytlar kimi görünən saxta saytlarla aldatmağa çalışırlar. Bu saytlar istifadəçilərin məlumatlarını oğurlamaq məqsədilə yaradılır;

- İnternetdə yayılan reklamlar və ya pop-up pəncərələri vasitəsilə istifadəçilər saxta məlumatlara yönəldilir və onları zərərli saytlarla qarşılaşdırır.

2022-ci ildə APWG (Anti-Fişing Working Group) tərəfindən yayımlanan hesabatda bildirilir ki, 2022-ci ildə dünya üzrə fişing hücumlarının sayı 2021-ci illə müqayisədə 20% artmışdır. Bu hücumlar ən çox maliyyə və bank məlumatlarını oğurlamaq məqsədi güdür.

İnternetdə daha çox vaxt keçirən istifadəçilər təhlükələrlə daha çox qarşılaşmağa başlayırlar.

*- İstifadəçilər şübhəli linklərə tıklayır və ya şübhəli elektron poçtlara cavab verirlər. Bu davranışlar zərərli proqramların və fişing hücumlarının qarşısını almaq üçün vacib olan diqqəti azaldır;*

*- İnsanlar internetdə daha çox vaxt keçirərək, şübhəli reklamlar və mesajlarla daha çox qarşılaşır. Bəzən istifadəçilər bu reklamlara inanaraq öz məlumatlarını təhvil verirlər;*

*- İnternetdə daha çox vaxt keçirmək istifadəçilərin cihazlarının və hesablarının təhlükə altına girməsinə səbəb olur. Həssas məlumatların oğurlanması kimlik oğurluğu və maliyyə zərərləri kimi nəticələrə yol açır.*

2023-cü ildə NortonLifeLock tərəfindən yayımlanan bir araşdırmaya görə, hər 10 internet istifadəçisindən biri zərərli proqram və fişing hücumlarına məruz qalır. Bu, internet təhlükəsizlik risklərinin çox artdığını göstərir.

Sosial mühəndislik hücumları: Kibercinayətkarların hücumları istifadəçiləri manipulyasiya etmə və aldatma yolu ilə həssas məlumatları ələ keçirmək məqsədi güdən təhlükələrdir. Bu hücumlar texnoloji vasitələrlə həyata keçirilən digər kiberhücumlardan fərqlənir, çünki burada əsas diqqət insanların psixoloji zəifliklərinə yönəlir. İnterneti daha çox istifadə edən insanlar, xüsusilə sosial şəbəkələrdə öz həyatlarını, fəaliyyətlərini və maraqlarını paylaşdıqları üçün sosial mühəndislik hücumlarının həyata keçirilməsi üçün zəngin məlumat mənbəyinə çevrilirlər.

Sosial mühəndislik hücumları əsasən insanların psixoloji zəifliklərindən istifadə edir. Kibercinayətkarlar insanların emosional vəziyyətlərindən, qorxularından, ehtiraslarından və digər insani xüsusiyyətlərindən faydalanaraq, onları inandırmağa çalışırlar. Bu hücumlar çox vaxt daha az texnoloji bacarıq tələb edir, çünki əsasən insanların psixologiyasına əsaslanır.

***1. Fişing hücumları ən geniş yayılmış sosial mühəndislik hücumlarından biridir. Hakerlər istifadəçiləri saxta e-poçtlar və ya veb saytlar vasitəsilə aldatmağa çalışır. Məsələn, istifadəçiyə rəsmi bir bankdan gələn e-poçt kimi görünən bir mesaj göndərilir və ondan hesab məlumatlarını daxil etməsi tələb olunur. Bu taktika istifadəçinin etibar etdiyi bir təşkilatın adına dayanır və insanın diqqətini cəlb edərək məlumat oğurluğuna səbəb olur. 2022-ci ildə Verizon-un məlumatına görə, təşkilatların qarşılaşdığı kibercinayətlərin 90%-i fişing hücumları ilə bağlıdır.***

***2. Hakerlər bir istifadəçinin iş yerindən və ya tanıdığı bir şəxs kimi özünü təqdim edərək, ondan müəyyən məlumatlar tələb edə bilərlər. Bu metod sosial mühəndislik hücumlarının ən təmiz formalarından biridir, çünki burada əsas məqsəd sadəcə etibar qazanmaqdır.***

***3. İstifadəçiyə "pulsuz hədiyyə" və ya "endirimli məhsul" təklif edilərək, bir şübhəli linkə və ya proqram yükləməyə yönəldilə bilər. Yüklənən proqram çox vaxt zərərli proqram ola bilər və ya istifadəçini şəxsi məlumatları daxil etməyə məcbur edər.***

***4. Fiziki olaraq, sosial mühəndislik hücumlarına aiddir və istifadəçini izləyərək, ona yaxınlaşmağı və gizli məlumatlara daxil olmağı məqsəd qoyur. İnternetdə isə bu, sosial şəbəkələrdən istifadə edərək, hədəf şəxslə yaxın əlaqə qurma və onun məlumatlarına daxil olma ilə əlaqəlidir.***

***5. Sosial media platformalarında tez-tez yayılan sorğular və "quizzes" (testlər) istifadəçilərdən öz şəxsi məlumatlarını tələb edir. Bu məlumatlar daha sonra hakerlər tərəfindən müxtəlif sosial mühəndislik hücumları üçün istifadə edilə bilər. Məsələn, bir şəxsin ad gününü, sevdiyi rəngini, ən sevdiyi heyvanını bilmək, şifrələrini təxmin etmək üçün köməkdir.***

2021-ci ildə Symantec-in hesabatına görə, sosial media üzərindən yayılan saxta sorğular, fişing hücumları ilə əlaqəli məlumat sızmalarının 40%-ni təşkil edib.

İnternetdən daha çox istifadə edən insanlar sosial mühəndislik hücumlarına daha çox məruz qalırlar, çünki onlar öz şəxsi həyatları haqqında çoxlu məlumatı onlayn paylaşır və ya digər istifadəçilərlə əlaqə qururlar. Sosial şəbəkələrdə daha çox vaxt keçirmək, istifadəçilərin maraqları, əlaqələri və sosial dairələri haqqında zəngin məlumat mənbələri yaradır. Hakerlər bu məlumatları istifadə edərək, insanları daha asan aldatmaq üçün müxtəlif texnikalardan faydalanırlar.

**Həll üçün bəzi təkliflər**

*1. Antivirus proqramlarından istifadə edilməli.*

*2. Sosial media platformalarında şəxsi məlumatların paylaşımı məhdudlaşdırılmalı.*

*3. Güclü şifrələr: şifrələrin təkrarı və ya zəif şifrələrin istifadə edilməsi kibertəhlükələrə yol açır. Daha çox internet istifadəsi bu zəifliklərin artmasına səbəb ola bilər.*

*4. Yenilənmələrin edilməməsi: insanlar proqram təminatını və əməliyyat sistemlərini mütəmadi olaraq yeniləmədikdə, onların sistemləri zərərli proqramlardan və kibertəhlükələrdən qorunmaz.*

*5. İnternetdən və sosial mediadan məqsədli istifadə edilməli.*

*6. Bildirişləri bağlamaq lazımdır.*

*7. Screen Time (Ekran vaxtı) təyin etmək.*

*8. İnternetə təhlükəsizliyinə nəzarətin tətbiqi.*



**Bəhruz Əliyev,**
**İnformasiya Texnologiyaları üzrə mühəndis-tədqiqatçı, Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) eksperti**

# Александр Лукашенко победил на выборах в Беларуси




26 января 2025 года в Беларуси состоялись президентские выборы. С 21 по 25 января проводилось предусмотренное законодательством досрочное голосование.
На должность Президента Беларуси претендовало 5 зарегистрированных кандидатов, включая действующего Главу государства А.Г.Лукашенко.
Выборы контролировали более 44 000 национальных наблюдателей.
На выборы в Беларусь приглашены и международные наблюдатели: ЦИК зарегистрировал 486 человек из 52 государств. Это представители стран СНГ, Европы, Азии и Африки, а также ряда структур СНГ, ОДКБ, ШОС, Движения неприсоединения, СВМДА. Была приглашена наблюдать и такая структура как БДИПЧ ОБСЕ, но отказалась со ссылкой на якобы поздно полученное приглашение из Минска.
Представители Милли Меджлиса (включая академика З.Самедзаде) и ЦИК Азербайджана также посетили Беларусь в качестве международных наблюдателей.
Для освещения выборов в СМИ был аккредитован 331 иностранный журналист из 23 стран. Явка избирателей составила 85,7%.
По результатам подсчета голосов, по данным ЦИК, Президентом Беларуси на новый 5-летний срок переизбран А.Г.Лукашенко. Он набрал 86,82 % голосов.
Президент Азербайджана И.Г.Алиев направил ему поздравления с убедительной победой на выборах.

# Президенту Республики Беларусь Его превосходительству господину Александру Лукашенко



Уважаемый Александр Григорьевич,
Сердечно поздравляю Вас с переизбранием на пост Президента Республики Беларусь.
Ваша убедительная победа на выборах свидетельствует о высоком доверии к Вам, о поддержке народом Беларуси Вашего последовательного курса, направленного на укрепление государственности и правопорядка, повышение благосостояния населения страны, осуществление демократических преобразований во всех сферах жизни общества.
Уверен, что наши совместные усилия и в дальнейшем будут способствовать укреплению и расширению традиционных отношений дружбы и всестороннего сотрудничества между Азербайджаном и Беларусью, развитию обоюдовыгодного взаимодействия на благо наших народов и стран.
Желаю Вам, уважаемый Александр Григорьевич, крепкого здоровья, счастья и успехов в Вашей государственной деятельности во имя процветания дружественного народа Беларуси.

**С уважением,**
**Ильхам Алиев**

**Президент Азербайджанской Республики**
**Баку, 27 января 2025 года**

# Стенограмма интервью Министра иностранных дел Беларуси М.Рыженкова МИЦ «Известия» (27 января 2025 г., г.Минск)

**(29 января 2025)**

***Максим Владимирович, вчера (26 января) в Беларуси прошли президентские выборы. Как вы можете их оценить с точки зрения безопасности? Фиксировалось ли иностранное вмешательство во время голосования?***

Я могу оценить выборы в первую очередь как сам избиратель. В общем-то, выборы прошли на очень высоко организованном уровне. Безопасность была обеспечена, о чем говорили и Министр внутренних дел, и его заместитель. Вообще для наших голосующих граждан созданы были все условия в нормальной, спокойной обстановке, без всякого принуждения, насилия отдать свой голос за то, что они считают нужным.

С точки зрения международной безопасности я вам скажу: хоть бы кто сюда к нам вообще полез, мало бы не показалось, так бы ответил Президент.

Но на самом деле мы ощущали влияние и даже, возможно, грубое воздействие со стороны ряда международных фигурантов – вмешательство, проще говоря, в нашу избирательную кампанию. Прежде всего это касается ключевых европейских институтов, которые уже давно взяли курс на непризнание наших выборов, потому что они давно поняли, как развивается ситуация в нашей стране, насколько проводится стабильная социально-политическая и экономическая линия в нашем государстве и что в условиях предоставления гражданам реального выбора и ощущения свободы этого выбора, конечно, победит действующий Глава государства. Но это в их планы же не входит.

Сегодня вся матрица признания или непризнания выборов на Западе сводится к тому, победили ли те кандидаты, которые потом приведут ту или иную страну в зону управления или влияния коллективного Запада. И если это не просматривается, то сразу же на это государство накидывают целую кучу ярлыков, стереотипов о том, что, дескать, СМИ были не свободны, у людей не было возможности проголосовать свободно, не было плюрализма мнений и так далее.



Даже если сегодня спокойная ситуация, даже если законодательство позволяет провести эти выборы, даже если административно созданы все условия, поверьте, там все равно найдут, за что зацепиться: ***«за последние 5 лет чьи-то где-то нарушили права, он не смог сегодня приехать проголосовать, поэтому выборы можно считать тоже несправедливыми»***. У международных институтов есть целая матрица (мы хорошо ее знаем) различных показателей их отношения к итогам выборов.

То есть если они не хотят признать эти выборы, они будут говорить о том, что страна пыталась что-то сделать, но не достигла справедливости, в стране были созданы условия, но у них что-то не получилось сделать. Это даже в тех случаях, когда все идет по их сценарию, но вот результат немного подкачал.

Для того чтобы назавтра в эту ловушку европейскую и дальше страны попадались, еще больше расшатали свою внутриполитическую модель в погоне за некими западными стандартами, которых на самом деле-то и нет.

С точки зрения внешнего воздействия – да, было воздействие. Оказало ли оно какое-то влияние на наше население? Нет.

Мы сами видели, что у людей было настроение прийти, проголосовать, причем проголосовать за сохранение той стабильной системы, которая есть сегодня в стране – экономической, внутри- и внешнеполитической.

Никакие призывы западных сил не идти на выборы, проигнорировать, голосовать против всех ни к чему не привели. Как говорит наш Президент, мы проводим выборы для нашего народа. И вот самый главный показатель успешности выборов – это наш народ. Тот процент, который пришел на участки, и тот процент, который проголосовал за действующего Президента нашей страны.

***Вы сказали о внешнем воздействии. Из каких стран были попытки дестабилизировать обстановку?***

Это ключевые европейские организации, Европейский союз прежде всего. Еще выборов не было, досрочное голосование только проводилось, а мы уже получили в наше распоряжение подготовленный заранее проект соответствующего заявления Европейской службы внешних действий о непризнании наших выборов со всеми вещами, которые в обосновании прописаны, в том числе с учетом дня голосования. Его подготовили намного заранее.

При этом Евросоюз — это ведь не одно государство. И образно говоря, для согласования такого заявления нужно время и надо согласие всех стран. Мы можем себе только представить, за сколько времени до дня голосования уже был подготовлен этот «ярлычный» со стереотипами документ, мнение ключевых европейских институтов в отношении Беларуси.

Например, Польша, Литва, Латвия – эти страны себя ведут как вообще вконец проигравшиеся игроки, которые последние годы все время ставят на проигрыш России, на проигрыш Беларуси. И каждый раз их ставка проигрывает, они ставят все больше и больше, больше подставляют свои народы, ухудшают положение своих стран, экономически уводят свои государства от нормального развития, от нормальных партнеров, таких как Россия, Беларусь, Китай, страны СНГ, получают от этого негативные социальные последствия. Но каждый раз их степень кипения повышается, нервозность увеличивается.

Тому пример — Министр иностранных дел Польши. Если вы все так хорошо чувствуете, если у вас есть четкое понимание, что «режим» доживает последние дни, если вы понимаете, что у вас «демократические» белорусские силы уже создают некие альтернативные системы, а они до сих пор признают эти все «котлетные» варианты легитимным правительством Беларуси, то зачем тогда такой истеризм, такой эмоциональный надрыв в ваших оценках ситуации? У вас же все должно быть хорошо, вы же идете к цели. Значит, нет. Значит, не получается что-то, значит, есть у польских, литовских, латышских политиков понимание того, что рано или поздно придется отвечать перед своими народами за упущенные годы сотрудничества с Россией, Беларусью, Китаем, которые бы дали им приличный импульс в торгово-экономическом развитии, в создании рабочих мест, реализации вопросов социальной политики в этих странах. А все идет не так. И, конечно, это раздражение выливается время от времени.

***В конце декабря Евросоюз в очередной раз ввел санкции в отношении Республики. Но многие страны все равно понимают важность поддержания отношений с Минском. Какие государства сейчас проявляют наибольший интерес к сотрудничеству с Беларусью?***

Несмотря на все санкции, порядка $8 млрд — это сумма нашей торговли с Европейским союзом. И самое интересное, что в этой сумме большая часть приходится на те государства, которые политически стоят у основ критики Беларуси и разворачивают антибелорусскую риторику в Европейском союзе.

То есть они там призывают к санкциям, говорят о нелегитимности нашей власти, Президента, а под шумок приторговывают. Это интересный подход. То есть если вы формируете позицию Евросоюза, заставляете некие государства, которые считаются локомотивами ЕС, приостанавливать какое-то взаимодействие, а что же вы сами? В этой мутной водичке половить лучшую рыбу и продвинуть свои интересы в ущерб интересам Европейского союза.

Поэтому сегодня, в целом, интерес к торгово-экономическому сотрудничеству есть. Многие страны ядра старой Европы проявляют к нему все больше и больше интереса. И это видно по проведению различных мероприятий между предпринимателями наших стран по линии торговых и промышленных палат, палат бизнеса.

Политически нам приходит больше и больше сигналов о готовности выстраивать с нами отношения. 20-й год прошел, тогда все были на эмоциях, тогда все думали, что это быстро пройдет, но есть очень много вопросов, которые связывают нас с Европой: от политических до гуманитарных, от культурных до экономических вопросов, граница, транспорт, логистика – это все сегодня надо и Италии, и Франции, и Германии, и Великобритании. А есть страны по периметру нашей границы с Евросоюзом, которые всячески препятствуют развитию этого сотрудничества, нагнетают атмосферу недоверия, а сами под шумок здесь свои вопросы решают.

Кроме того, я не могу сказать, что со всеми странами ЕС у нас «закрытые» политические отношения. Хороший пример – Венгрия, которая, кстати, и с Россией имеет свою собственную позицию. Венгрия действует в интересах своего народа – это нас сближает. Венгрия действует в интересах объединенной Европы – это нас тоже сближает. Президент наш неоднократно это говорил, в его предвыборной программе есть тема нормализации отношений с Европой.

Мы часть Европы, мы не можем быть от нее отрезаны, также, как и Россия. Наилучшим для всех нас будет как раз таки развитие подхода «евразийскости», концепции «интеграции интеграций» (Евросоюз – ЕАЭС), где все получат выгоду: и Европа, и Россия, и Беларусь, и Украина, и все другие страны. А сегодня все получают только ущерб от той позиции, которая исходит от некоторых стран.

*(продолжение в следующем номере)*

## TƏBRİK



Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Sahibkarlar Konfederasiyasının Prezidenti Məmməd Musayev Azərbaycanda sahibkarlığın inkişafı sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə **"Şöhrət"** ordeni ilə təltif edilib.

Məmməd müəllim regionlarda sosial-iqtisadi inkişafın təmin edilməsi üçün kənd yerlərində fəaliyyət göstərən sahibkarlıq subyektlərinə kreditlərin verilməsi və bununla yeni iş yerlərinin açılması, əhaliyə göstərilən maliyyə-kredit xidmətlərinin keyfiyyətinin yaxşılaşdırılması və bu sahədə mövcud olan ən mütərəqqi üsulların tətbiq edilməsi istiqamətində mühüm işlər görmüşdür. O, 1987-ci ildə **"Dövlət Bankı əlaçısı"** fəxri adına layiq görülmüş, 1998-ci ildə isə iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır.

Əziz dostum Məmməd Musayevi **"Şöhrət"** ordeni ilə təltif edilməsi və 70 illik yubileyi münasibətilə ürəkdən təbrik edirəm! Ona uzun ömür, can sağlığı, doğma Vətənimizin tərəqqisi naminə gördüyü işlərdə uğurlar arzulayıram.

**Azərbaycan İqtisadçılar İttifaqının sədri, "İqtisadiyyat" qəzetinin təsisçisi, akademik Ziyad SƏMƏDZADƏ**

## "AzerGold" QSC-nin qızıl və gümüş sikkə kolleksiyaları İsveçrədə növbəti dəfə nümayiş olunub



**"AzerGold" QSC-nin qızıl və gümüş sikkə, eləcə də qızıl külçə kolleksiyaları İsveçrədə növbəti dəfə nümayişə çıxarılıb.**

Qiymətli məhsullar İsveçrənin Sankt-Moritz şəhərində keçirilən qar polosu üzrə 40-cı dünya kuboku çərçivəsində Heydər Əliyev Fondunun təşkilatçılığı ilə ərsəyə gətirilmiş Azərbaycan pavilyonunda sərgilənib.

Milli pavilyonda qonaqlar üçün Heydər Əliyev Fondunun "Azərbaycan. Təbiətin sehrində" nəşrindəki foto və videomateriallar, eləcə də qədim çövkən oyununa dair müxtəlif nümayişlər, ölkəmizin müxtəlif milli brendlərinə məxsus məhsullar, Azərbaycanın görməli yerlərinə virtual səyahət imkanları təqdim edilib.

Azərbaycan qızılı və gümüşündən istehsal edilmiş sikkə və külçələr beynəlxalq sərgi iştirakçılarının böyük maraq göstərdiyi məhsullar sırasında olub. Pavilyonu ziyarət edənlərə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə "Smartminting" texnologiyası əsasında 3D formatında ərsəyə gətirilmiş "100 il və onun fövqündə bir irs" unikal qızıl sikkəsi, Heydər Əliyev Fondunun 20 illiyinə həsr olunmuş qızıl sikkə, yeni nəsil "Bakı" gümüş sikkəsi, eləcə də Qarabağ kolleksiyasına aid qiymətli məhsullar daxil olmaqla, Azərbaycanın müasirliyini, tarix və incəsənətini, qədim ənənələrini təbliğ edən məhsullar barədə ətraflı məlumat verilib.

Qeyd edək ki, sərgi 24-26 yanvar tarixlərində keçirilib.

## "AzerGold" QSC ekoloji sahədə "2024-cü ilin ən yaxşı tərəfdaşı" nominasiyası üzrə təltif edilib





***"AzerGold" QSC Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN) tərəfindən 2024-cü ildə "Korporativ sosial məsuliyyət çərçivəsində ətraf mühit layihələrində ən yaxşı tərəfdaş" nominasiyası üzrə təltif edilib.***

Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev tərəfindən təqdim edilən mükafatı "AzerGold" QSC-nin İdarə Heyəti sədrinin müavini, Korporativ Sosial Məsuliyyət Komitəsinin sədri Xəyyam Fərzəliyev qəbul edib.

QSC bu mükafata 2024-cü ildə icra etdiyi "Daşkəsən rayonunda bitən nadir bitkilərin reintroduksiyası" və "Təmiz Daşkəsən" layihələri ilə ətraf mühitin mühafizəsinə verdiyi töhfələrə görə layiq görülüb.

Tədbirdə, həmçinin təbiətin mühafizəsi və ətraf mühitin qorunmasına yönələn təşəbbüslərə qoşularaq ətraf mühitin sağlamlaşdırılmasına, ekoloji maarifləndirmə sahəsinə dəstək göstərən digər sahibkarlıq subyektləri, təşkilatlar və qeyri-hökumət təşkilatları müxtəlif nominasiyalar üzrə təltif edilib. Qeyd edək ki, "AzerGold" QSC fəaliyyət göstərdiyi bölgələrdə ətraf mühitin mühafizəsi və sosial məsuliyyətlilik prinsiplərini daim diqqətdə saxlayır. Səhmdar Cəmiyyəti "Yaşıl dünya naminə həmrəylik ili" elan edilən 2024-cü ildə hasilat və istehsalat fəaliyyəti həyata keçirdiyi Daşkəsən rayonunda ətraf mühitin mühafizəsi sahəsində ardıcıl və kompleks tədbirlərini davam etdirib.

Belə ki, 2021-2024-cü illərdə icra edilən "Daşkəsən rayonunda bitən nadir bitkilərin reintroduksiyası" layihəsi çərçivəsində ötən il Azərbaycan Respublikasının "Qırmızı Kitabı"na daxil edilmiş nadir, nəsli kəsilmək təhlükəsində olan bitki növlərinin "Çovdar" qızıl mədəni ətrafında çoxaldılması və reintroduksiyası işləri uğurla tamamlanıb.

"Təmiz Daşkəsən" ekoloji layihəsi çərçivəsində isə ümumilikdə 10 hektara yaxın ərazi plastik, polietilen, metal, şüşə, kağız, karton və digər tərkibli tullantılardan təmizlənib, Daşkəsən şəhərinin müxtəlif küçələrinə yeni tullantı konteynerləri və zibil qutuları yerləşdirilib.

Bundan başqa, qış aylarında yem tapmaqda çətinlik çəkən quşların bəslənməsinə və mühafizəsinə dəstək məqsədilə "Çovdar" qızıl mədəninin ətrafındakı meşə ərazisində ekoloji təmiz quş yemlikləri quraşdırılıb, onların mövsümlük yem ehtiyacı qarşılanıb, ərazidə ağacəkmə və yaşıllaşdırma işləri davam etdirilib.

## Türkiyənin nüfuzlu Koru Xəstəxanasının nümayəndələri ilə görüş keçirilib







24 yanvar 2025-ci il tarixində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Mərkəzi Hospitalında Türkiyənin nüfuzlu Koru Xəstəxanasının nümayəndələri ilə əməkdaşlıq görüşü keçirilib.

Görüşdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəis müavini, t.ü.f.d., dosent İsmayıl Əfəndiyev, Mərkəzi Gömrük Hospitalının Rəisi-baş həkim, t.e.d., Bəxtiyar Musayev, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Elmi Təcrübi və Tədris Mərkəzinin rəisi, t.e.d, Milli Məclisin Səhiyyə Komitəsinin sədr müavini Rəşad Mahmudov, Türkiyənin Koru Xəstəxanasının Qadın Xəstəlikləri və Doğum şöbəsinin rəisi, Prof. Dr.Aydan Biri və Beyin və sinir cərrahiyyəsi üzrə mütəxəssis Gülşad Bademci iştirak ediblər.

İsti və dostluq atmosferində keçirilən görüşdə ikitərəfli əməkdaşlıq perspektivlərinin inkişafı, beynəlxalq əməkdaşlığın genişləndirilməsi istiqamətində gələcək perspektivlər müzakirə olunub. Həmçinin, iştirakçılar tərəfindən Mərkəzi Gömrük Hospitalı və Koru Xəstəxanasının fəaliyyəti barədə ətraflı məlumatlar təqdim edilib. Daha sonra qarşılıqlı maraq doğuran təkliflər irəli sürülüb və digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

## "Klinik protokolların tətbiqinin gündəlik praktikada əhəmiyyəti" mövzusunda seminar həyata keçirilib




24 yanvar 2025-ci ildə Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin təşkilatçılığı ilə Mərkəzi Gömrük Hospitalında "Klinik protokolların tətbiqinin gündəlik praktikada əhəmiyyəti" mövzusunda seminar həyata keçirilib.

Seminarda Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin rəisi Ceyhun Məmmədov, rəis müavini İsmayıl Əfəndiyev, Elmi-Təcrübi və Tədris Mərkəzinin rəisi Rəşad Mahmudov, Mərkəzi Gömrük Hospitalının Poliklinika şöbəsinin rəisi Tamilla Əliyeva, Mərkəzi Gömrük Hospitalının və digər xəstəxanaların klinik bazasında təhsil alan müxtəlif ixtisaslı rezidentlər və gənc həkimlər iştirak edib.

Seminarda Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi Tədris Mərkəzinin rəisi, Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini, ürək-damar cərrahı Rəşad Mahmudov "Klinik protokolların tətbiqinin gündəlik praktikada əhəmiyyəti" mövzusunda geniş təqdimatla çıxış edib. Rəşad Mahmudov çıxışında sübutlu təbabət prinsiplərinə əsaslanan klinik protokolların gündəlik praktikada tətbiqinin pasiyentyönümlü tibbi xidmətlərin beynəlxalq standartlara uyğun təşkilində olduqca vacib əhəmiyyətə malik olduğunu vurğulayıb.

Seminar zamanı Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin rəisi Ceyhun Məmmədov seminar iştirakçılarına gündəlik tibbi praktikada klinik protokollardan istifadənin əhəmiyyəti və Azərbaycanda ilk klinik protokolların yaranma tarixi barədə məlumat verib. Ceyhun Məmmədov internetdə sübutla əsaslanan təbabətlə bağlı materialların mövcud olduğu resurslardan da danışıb, həmçinin Səhiyyə Nazirliyi tərəfindən təsdiq edilmiş klinik protokollarla dinləyiciləri tanış edib.

Seminarın sonunda Mərkəzi Gömrük Hospitalının Poliklinika şöbəsinin rəisi Tamilla Əliyeva çıxışına və aktual mövzunu gündəmə gətirdiyinə görə Rəşad Mahmudova təşəkkür edib və gənc həkim və rezidentləri gündəlik təcrübələrində aktiv şəkildə klinik protokollardan istifadəyə səsləyib.

**Dilarə Zamanova,**
**Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**

## "İnnovasiyalarla Müxtəlifliyə Doğru" tədbirinə dəstək oldu




İnnovasiya və sürət lideri "Bakcell" inklüzivliyə dəstək strategiyası çərçivəsində "Birgə və Sağlam" İctimai Birliyi tərəfindən yaradılan "Kaşalata" kafedə "İnnovasiyalarla Müxtəlifliyə Doğru" adlı tədbir təşkil edib. Tədbirin məqsədi "Bakcell" ilə "Birgə və Sağlam" İctimai Birliyi arasındakı tərəfdaşlığın qeyd olunması və kafedə çalışan gənclərlə görüş olub.

Tədbir çərçivəsində "Bakcell"in baş icraçı direktoru Klaus Müller, Korporativ kommunikasiyalar üzrə direktoru Aysel Süleymanova, "Birgə və Sağlam" İB-nin sədri Aytən Eynalova, İB-in Valideyn Məşvərət Şurasının sədri Natəvan Məmmədova və millət vəkili Nigar Arpadarai çıxış ediblər. Tədbirə diplomatik nümayəndəliklərdən, qeyri-hökumət təşkilatlarından (QHT) və media sektorundan olan nümayəndələr də qatılıb və ümumilikdə 40-a yaxın qonaq iştirak edib.

"Bakcell"in baş icraçı direktoru Klaus Müller çıxışında bu təşəbbüsün innovasiya və inklüzivlik baxımından şirkət üçün əhəmiyyətli olduğunu vurğulayıb: ***"İnnovasiya yalnız texnologiyalarla deyil, həm də cəmiyyətimizin hər bir üzvünə yeni fürsətlər yaratmaqla bağlıdır. "Kaşalata" kimi layihələr neyro-müxtəlifliyi olan gənclərin potensialını ortaya çıxararaq onların cəmiyyətə bərabərhüquqlu inteqrasiyasına və parlaq gələcəyinə zəmin yaradır. "Bakcell" olaraq innovativ həllərlə dayanıqlı və inklüziv cəmiyyətin qurulmasında töhvə verməkdən qürur duyuruq və gələcəkdə də bu kimi təşəbbüsləri dəstəkləməyə davam edəcəyik".***

"Birgə və Sağlam" İctimai Birliyinin məqsədi neyro-müxtəlifliyi olan şəxslərin və onların ailələrinin sosial rifahını dəstəkləməkdir. Bu məqsədlə autizmli şəxslərin cəmiyyətə inteqrasiyasını, inklüziv təhsili və məşğulluq imkanlarının artırılmasını hədəfləyən tədbirlər həyata keçirilir. Hazırda Birliyin nəzdində 2 Autizm Mərkəzi fəaliyyət göstərir. "Birgə və Sağlam" İctimai Birliyinin təşəbbüsü ilə təsis edilmiş "Kaşalata" kafe xüsusi qayğıya ehtiyacı olan gənclərin məşğulluğunu dəstəkləyən mühüm bir sosial layihədir.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Elşən Hacızadə, Ədalət Muradov, Bəyalı Ataşov, Vahid Novruzov, Rəsul Balayev, Süleyman Qasımov, Zahid Məmmədov, Elşad Səmədzadə, Qüdrət Kərimov, Məhiş Əhmədov, Aydın Hüseynov, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500